*Abdullayeva Ş. Mənbələr Yusif peyğəmbərin qəbrinin yeri haqqında // Elmi əsərlər, 2018,№2(7),iyul-dekabr,s.54-60.*

UOT 28-24

**Abdullayeva Ş.**
*filologiya üzrə fəlsəfə doktoru,*
*AR Respublikası Prezidentinin İşlərİdarəsinin*
*Siyasi Sənədlər Arxivi,*
*Bakı ş., Azadlıq prospekti 161*
*e-mail: abdullayevashakhla@gmail.com*

# MƏNBƏLƏR YUSİF PEYĞƏMBƏRİN QƏBRİNİN YERİ HAQQINDA

**Açar sözlər**: *Quran, Əhdi-Ətiq, Əhdi-Cədid, Yaqub, Yusif, əl-Xəlil, Nablus, Hərəm əl-Ibrahimi.*

*Qurani-Kərimdə "Əhsənül-qisəs" ("Qissələrin ən gözəli") adlandırılmış [Qurani-Kərim, 12/3] "Yusif" surəsində Hz.Yusifin həyatı haqqında nəql olunanlar bir-birinə bağlı surətdə tamamlanmış bir dastan təəssüratı bağışlayır. Burada Yusif peyğəmbərin həyatı – uşaqlıq çağlarından başlayaraq başına gələn fəlakətlər, Misirdə yüksək məqama çatması, ailəsini Misirə gətirməsi, bir sözlə, tam həyat sərgüzəşti ardıcıl olaraq bəyan edilmişdir. Yusif peyğəmbərin vəfatına isə yalnız bir yerdə, fərqli bir mövzudan bəhs edilərkən "əl-Mömin" surəsində rast gəlinir [Qurani-Kərim, 40/34], lakin onun dəfn olunduğu məkan barədə heç bir məlumat verilmir.*

Yusif peyğəmbərin harada dəfn edilməsi haqqında əhli-Kitab arasında müxtəlif fikirlər mövcuddur. Müsəlmanlar Yusif peyğəmbərin qəbrinin Qüdsün 35 km cənubunda əl-Xəlil (Hevron) şəhərinin qədim hissəsində yerləşən "Patriarxlar mağarası", "Məxfilə mağarası", yaxud "Hərəm əl-İbrahimi" adlanan yerdə [3, s.3; 24, s.42], yəhudilər, eləcə də qeyri-müsəlman tədqiqatçıların əksəriyyəti isə Samiriyyə (Şomron) bölgəsində, Nablus (Şexem) şəhərində olduğuna inanırlar [10, s.117; 14, s.280;15, s.181, 213; 19, s.338; 20, s.205, 206; 21, s.67; 22, s.246]. Məşhur ispan ravvini Yona Gerondi (1200-1263) isə özünün "Yihus ha-Zaddikim" adlı əsərində yazır ki, Yusif peyğəmbərin qəbri Nablus yaxınlığındakı əl-Balatam kəndindədir [bax: 23, s.240].

Bibliyada adı "Məxfilə mağarası" kimi keçən, islam dünyasında isə "Hərəm əl-İbrahimi" kimi tanınan məkanda bu gün bir çox peyğəmbərlərin qəbri yerləşir. Həmin hərəm Fələstin ərazisində İordan çayının qərb sahilindəki əl-Xəlil şəhərindədir. Burada İbrahim, İshaq və Yaqub peyğəmbərlərin, eləcə də onların həyat yoldaşları Sara, Rebeka və Liyanın qəbirləri yerləşir [6, s.85]. İngiltərənin ən qədim universitetlərindən olan Vestminster Universitetinin dekanı, məşhur ingilis dini xadimi, kilsə tarixçisi Artur Perni Stenli (1815-1881) 1862-ci ildə, Fələstinə ikinci səfəri zamanı 1187-ci ildən heç bir avropalının ayağı dəyməyən "Hərəm əl-İbrahimi"ni ziyarət etmək icazəsini alır. Orada gördüklərindən bəhs edən dekan Stenli yazır: "İbrahimin türbəsi açılanda oraya toplaşanlar arasından inilti səsləri eşidildi və bu səs Yaqub və Yusifin qəbirləri yanında daha da artdı". Dekan Stenlinin bu sözlərində yanlışlıq olduğunu qeyd edən məşhur amerikalı tarixçi alim Barbara Takman Stenlinin İshaq və Yaqub peyğəmbərləri nəzərdə tutduğunu yazır və Yusif peyğəmbərin qəbrinin Hevronda olmadığını bildirir [13, s.281].

Yaqub peyğəmbərin öz vəsiyyətinə uyğun olaraq [Bibliya, Əhdi-Ətiq, "Yaradılış", 50:5] Məxfilədə, yəni "Hərəm əl-İbrahimi"də basdırıldığı Bibliyada öz əksini belə tapıb: "Beləliklə, Yaqubun oğulları onun vəsiyyətini yerinə yetirdilər, onu Kənan diyarına gətirib İbrahimin Het Əfrundan dəfn yeri kimi aldığı, Mamre qarşısında yerləşən Məxfilə sahəsindəki mağarada dəfn etdilər" [Bibliya, Əhdi-Ətiq, "Yaradılış", 50:12, 13].

Məşhur İran şairi və mütəfəkkiri Nasir Xosrov (1004-1088) öz "Səfərnamə"sində Hz.Yusifin qəbrinin əl-Xəlildə yerləşdiyini yazır. Nasir Xosrovun yazdığına görə, əl-Xəlildə, Mətlun kəndinin kənarındakı məqbərədə altı qəbir mövcuddur: İshaq, İbrahim və Yaqub peyğəmbərlər və onların həyat yoldaşlarının qəbirləri. Bu məqbərədən bir qədər aralıda Yusif peyğəmbərin məqbərəsi yerləşir. Gözəl günbəzi olan bu məqbərə yonma daşlardan inşa edilib. Altı qəbrin yerləşdiyi məqbərə ilə Yusif məqbərəsi arasındakı ərazidə isə qəbiristanlıq salınıb [29, s.41-43].

Yusif peyğəmbərin iki dəfə basdırıldığı iddia olunur: birinci dəfə Misirdə, ikinci dəfə isə Kənan diyarında, yəni indiki Fələstin və İsrailin yerləşdiyi ərazidə [bax: 24, s.112]. Bibliyada Yusif peyğəmbər vəfat etdikdə onun basdırıldığı qeyd olunmur, sadəcə tabuta qoyulduğu söylənilir: "Yusif yüz on yaşında öldü, onu Misirdə mumyalayıb tabuta qoydular" [Bibliya, Əhdi-Ətiq, "Yaradılış", 50:26]. Bəzi mənbələrdə Yusif peyğəmbərin dəmirdən, bəzilərində mərmərdən, yaxud sikomor ağacından düzəldilmiş tabuta qoyulduğu qeyd olunur [bax: 7, s.57].

Hz.Yusifin Misirin özündə harada dəfn olunması haqqında midraşlarda iki versiyaya rast gəlinir. Birinci versiyaya görə o, Misir padşahları məqbərəsində basdırılıb, ikinci versiyaya görə isə Nil çayına buraxılıb [23, s.251; bax: 24, s.113].

Görkəmli şiə alimi, "Əminül-islam" ləqəbli Əbu Əli Fəzl ibn Həsən Təbərsi (1073-1153) özünün məşhur "Məcməül-bəyan fi Təfsirül-Quran" adlı əsərində yazır ki, Hz.Yusif vəfat etdikdən sonra onu mərmər bir tabuta qoyurlar və Nil çayının ortasında dəfn edirlər. Bunun səbəbi kimi, alim Misir xalqının ayrı-ayrı tayfalarına mənsub olanların hər birinin cənazəni öz məntəqələrində dəfn etmək istəklərini göstərir. İddiaçılar sonunda belə qərara gəlirlər ki, cənazəni Nil çayının ortasında basdırsınlar və beləcə, onun bərəkətindən hər kəsə pay düşsün. Cənazə də beləcə ta Hz.Musa onu Nil çayından çıxarıb Fələstinə aparanadək orada qalır [28, s.408].

2010-cu ildə Nil çayının şərq deltasında Avstriya arxeoloqları tərəfindən aparılan qazıntı işləri zamanı aşkar olunmuş hiksoslarının qədim paytaxtı Avaris şəhəri qalıqları üzərində tədqiqatlar daha bir versiyanın irəli sürülməsinə səbəb olmuşdur. Belə ki, əldə olunan təsvirlər şəhərdə, demək olar ki, bütün binaların Misir üslubunda tikildiyini və yalnız bir məntəqədəki evlərin tam fərqli olduğunu təyin etməyə imkan vermişdir. Qazıntılar zamanı həmin məntəqədə Yusif peyğəmbərə məxsus olduğu güman edilən kiçik bir saray tapılmışdır. Saraydan 80 metr kənarda isə üzərində kiçik bir piramida təsis olunmuş bir qəbir mövcuddur. Arxeoloqların fikrincə, bu, çox güman ki, Yusif peyğəmbərin qəbri olmuşdur. Qəbirdə mərhumun mumyası tapılmamışdır. Lakin qəbrin yerləşdiyi türbədə əhəng daşından hazırlanmış böyük bir heykəlin qalıqlarına rast gəlinmişdir ki, heykəlin çiyin hissəsində "yadelli" damğası mövcud olmuşdur. Qədim Misirdə yadelli olub belə hörmətlə basdırılacaq yeganə adam isə ancaq və ancaq Misir xalqını aclıqdan xilas etmiş Yusif peyğəmbər ola bilərdi. Onun cəsədinin qalıqlarının yəhudilərin Misiri tərk etməsi zamanı aparılması da qəbirin boş olmasının məntiqi səbəbi hesab oluna bilər [4, s.113]

Yusif peyğəmbər cəsədinin Misirdən çıxarılaraq vəd olunmuş torpaqlara aparılmasını özü vəsiyyət etmişdi: "Yusif İsrail oğullarına and verib dedi: "Allah mütləq sizə nəzər salacaq. Onda mənim sümüklərimi də buradan apararsınız" [Bibliya, Əhdi-Ətiq, "Yaradılış", 50:25]; "Musa Misirdən Yusifin sümüklərini də apardı, çünki Yusif İsrail oğullarına and içdirib demişdi: "Allah mütləq sizə nəzər salacaq. Onda mənim sümüklərimi də özünüzlə apararsınız" [Bibliya, Əhdi-Ətiq, "Çıxış", 13:19]. "Yusif, imanı ayəsində, ölüm yatağında olarkən İsrail oğullarının Misirdən çıxacağını söyləyib öz sümükləriilə bağlı onlara göstəriş verdi" [Bibliya, Əhdi-Cədid, "İbranilərə", 11:22]. Yusif

peyğəmbərin bu vəsiyyəti 400 ildən çox zaman keçdikdən sonra yerinə yetirilir. Hz.Musa yəhudilərlə birgə Misiri tərk edərkən Hz.Yusifin cəsədinin qalıqlarını özü ilə aparır [8, s.12; 12, s.232] və Şexemdə Hz. Yaqubun Hamor oğullarından yüz qesitaha aldığı və Yusifin oğullarına miras qoyduğu torpaqda dəfn edir [Bibliya, Əhdi-Ətiq, "Çıxış", 13:19; "Yuşə", 24:32].

Midraşlara görə, İsrail oğulları Misiri tərk edərkən Hz.Yusifin sümüklərini özləri ilə aparmadıqları təqdirdə onların Misiri tərk etmələri əhdlərini pozmaq kimi qiymətləndirilərdi. Hətta Misir kahinləri firona deyirlər ki: "Əgər İsrail oğullarının heç bir zaman Misiri tərk etməməsini istəyirsənsə, elə et ki, onlar Yusifin qəbrini tapa bilməsinlər, çünki Yusif İsrail oğullarına onun sümüklərini buradan çıxarıb vəd olunmuş torpağa aparmalarını vəsiyyət edib". Hz.Musa üç gün-üç gecə Hz.Yusifin qəbrini axtarır, lakin kimsə qəbrin yerini bilmir. O nəslin nümayəndələrindən yalnız Aşerin qızı Sara sağ imiş. Hz.Musa onun yanına gəlir və Yusif peyğəmbərin qəbrinin yerini bilib-bilmədiyini soruşur. Sara bildirir ki, misirlilər Yusifə dəmirdən bir qəbir düzəldib Nil çayının dibinə buraxıblar ki, çayın suyunu bərəkətləndirsin. Beləliklə, Musa peyğəmbər Saranın köməyilə tabutun Nil çayında olduğunu öyrənir. Hz.Yusifin camını götürüb ondan 4 parça kəsir, birinin üzərinə şir, ikincisinə qartal, birinə buğa, digərinə isə insan şəkli həkk edir. Üzərində şir olan parçanı Nil çayına atıb yüksək səslə deyir: "Yusif, Yusif! Yaradanın öz xalqını köləlikdən azad etdiyi vaxt gəlib çatıb və xalqın sənə verdiyi sözə əməl etməsinin də zamanı yetib. Sən xalqı yolundan saxlayırsan. Özün sudan çıxıb görünəcəksənsə, çox yaxşı, amma əgər görünməyəcəksənsə, onda biz öz vədimizdən azad olmuş hesab ediləcəyik". Lakin tabut üzə çıxmır. Hz. Musa eyni sözləri üzərində qartal, buğa şəkli olan parçaları ataraq da söyləyir, lakin tabut yenə görünmür. Nəhayət, üzərində insan həkk olunmuş parça suya atıldıqdan sonra tabut üzə çıxır [17, s.181-183; 23, s.251; 24, s.113].

İslami qaynaqlarda da həmin rəvayətin oxşarına rast gəlirik. Məşhur tarixçi və coğrafiyaşünas Əli ibn Hüseyn Məsudi (893-956) öz "İsbat əl-vəsiyyət lil-İmam Əli ibn Əbu Talib" adlı əsərində bu barədə belə yazır: "Yağış yağmırdı, Musaya vəhy gəlir ki, Yusifin cənazəsini çıxarsın, onda yağış yağacaq. Musa Yusifin dəfn olunduğu yeri soruşur, lakin heç kim bilmir, nəhayət Bəni-İsraildən bir kor yaşlı qadını gətirirlər və o, Musa peyğəmbərə belə deyir: "Mən Yusifin qəbrinin yerini bilirəm, lakin onu sizə deməyim üçün şərtlərim var: xəstəlikdən şəfa tapım və yeriyə bilim, gözlərim yenə görsün, cavanlığım geri donsün və Allah mənim üçün cənnətdə sənin yanında yer versin". Hz.Musaya vəhy gəlir ki, onun dediklərini qəbul etsin. Beləliklə, qadın Hz.Yusifin qəbrinin yerini göstərir və Musa peyğəmbər cəsədin qalıqlarını oradan çıxarıb özü ilə Fələstinə aparır [26, s.50]. Eyni rəvayəti, müəyyən fərqlərlə məşhur şiə ilahiyyatçı-mühəddis alimi İbn Babuveyh (917-991) "İləlüş-şəraye" əsərində bir hədisə istinadən təkrarlayır [27, s.933, 934].

Midraşlarda rəvayət olunur ki, Musa peyğəmbər Hz.Yusifin sümüklərini çıxardıqdan sonra onları bir qoyun dərisinin içinə yığır və həmin sümüklər yenidən canlanırlar. Yusif peyğəmbərin sümükləri qoyun cildində 40 il boyu yəhudiləri səhrada təqib edir [bax: 18, s.376]. Bəzi mənbələrə görə isə, Hz.Musa Misirdən çıxarkən Yusifin qalıqlarını Tih çölünə gətirir, ölərkən də onu Yuşəyə tapşırır. Yuşə ibn Nun Ərihanı fəth etdikdən sonra Nablusa gedir və qalıqları qardaşları onu karvanbaşıya satdığı yerdə dəfn edir [2, s.23]. Çünki İsrail oğullarına belə buyurulmuşdu: "Onu Şexemdən oğurlayıb aparmışdınız, eləcə də Şexemə geri qaytaracaqsınız" [17, s.184].

Amerikan səyahətçisi və yazıçısı Ross Braun (1821-1875) Fələstin torpağına səyahətini əks etdirən kitabında Şexemdə Yaqub quyusundan sonra Yusif peyğəmbərin də qəbrini ziyarət etdiyini yazır, lakin yazıçı görkəmli şəxsiyyətlərin bu qəbrin Yusifə aid olmasını

təsdiq edən bir dəlil-sübut olmadığını söylədiklərini də qeyd edir [16, s.354].
Xristian missioneri və maarifçisi Con Vilson (1804-1875) Yusif peyğəmbərin qəbrinin Samiriyyənin mərkəzində, Nablus şəhərinin cənubunda yerləşən Gerizim və Əybal dağları arasındakı bölgədə, Yaqub quyusundan 200-300 yard şimalda yerləşdiyini yazır. Vilsonun sözlərinə görə, Hz.Yusifin oğulları Əfrayim və Menaşşenin də qəbirləri buradadır. Qəbirətrafı divarlarda buranı ziyarət edənlərin adları yazılmışdır və bir yazıdan anlaşılır ki, bu qəbir 5509-cu ildə, Sivan ayında (1749, may-iyun – *Ş.A.*) Meir oğlu Eliya adlı bir misirli yəhudi tərəfindən təmir edilmişdir [25, s.45, 60, 61].

Nablusdakı qəbir əsrlər boyu yəhudlərin ziyarət yeri olmuşdur. XX əsrin əvvəllərində, eləcə də 20-ci illərdə yəhudi kolonistləri orada məskunlaşmağa cəhd göstərsələr də, bu, mümkün olmur. Yalnız 1967-ci ilin 5-10 iyun tarixlərində baş vermiş 6 günlük müharibədən sonra dindar yəhudilər Nablusda Yusif məqbərəsini bərpa edərək, onun yerində sinaqoq və yeşiva (dini məktəb) yaradırlar. 1995-ci ilin 28 sentyabrında Vaşinqtonda bağlanmış "İkinci Oslo" – Fələstin-İsrail müvəqqəti anlaşmasına əsasən İsrail ordusu Şexemi (Nablusu) tərk edir, lakin müqavilədə göstərilən bəndə əsasən, Yusif məqbərəsi nəzdində yerləşən yeşiva İsrail anklavı olaraq qalır. 2000-ci ilin 28 sentyabrında başlanan "əl-Əqsa intifadası"nın ilk günlərində Nablusda Yusif məqbərəsini və onun nəzdindəki yeşivanı qoruyan sərhədçi əsgərlərdən biri yaralanır və vəfat edir. 7 oktyabr tarixində o zamankı Baş Nazir Ehud Barak hökuməti tərəfindən "müvəqqəti olaraq" Yusif məqbərəsinin tərk edilməsi və əsgərlərin Nablusdan evakuasiyası qərara alınır ki, məşhur İsrail siyasi xadimi, "Molodet" Partiyasının təsisçisi və sədri general-mayor Rexavam Zaevi (1926-2001) bu qərarı "milli özünəqəsd" adlandırmışdır [9].

*Yəhudilərin əksəriyyəti Yusif peyğəmbərin qəbrinin Nablusda yerləşdiyini qəbul etsələr də, bu fikirlə razılaşmayanlar da az deyil. Yəhudi naşir və yazıçı Mixail Dorfman (doğ.1954) Nablusdakı qəbrin Yusif peyğəmbərə məxsus olması fikrinin İsrail tarixçisi və coğrafiyaşünası Zaef Vilnainin (1900-1988) uydurması hesab edir və Yerusəlim Universitetinin professoru Yequda Şilonun həmin yerdə bir ərəb şeyxinin qəbrinin olmasını təyin etdiyini bildirir [bax: 9]. Ərəb və solçu İsrail mətbuatında da Yusif peyğəmbərin Nablusdakı qəbrinin həqiqi olmadığı haqqında yazılar nəşr olunmuşdur. Müsəlmanlar həmin yerdə 200 il əvvəl Şeyx Yusif Dəviqat adlı bir islam şeyxinin basdırıldığını qəbul edirlər. Nablusun meri Həsən əş-Şəqaa bildirmişdir ki, bu qəbrin daxilində kimin sümüklərinin olması ilə bağlı beynəlxalq araşdırma aparılmalıdır və əgər həmin yerdə Hz.Yusifin sümüklərinin olduğu aşkar edilərsə, o zaman yəhudilər bu yeri öz müqəddəs yerləri kimi ziyarət haqqına sahib olacaqlar [bax: 11]. 2009-2010-cu illərdə məqbərə təmir olunmuş, yeni gümbəz quraşdırılmış və yəhudi zəvvarların ziyarəti bərpa edilmişdir. Hal-hazırda isə yəhudi zəvvarların müntəzəm olaraq İsrail Silahlı Qüvvələri ilə razılaşdırmaqla mütəşəkkil bir şəkildə Yusif qəbrinə çatdırılması üçün şərait yaradılmışdır.*

## Ədəbiyyat:


1. Qurani-Kərim (ərəb dilindən tərcümə edənlər: Z. Bünyadov və V. Məmmədəliyev. Bakı: Azərnəşr, 1992.
2. Ahmet Cevdet Paşa. Peyğamberler ve Halifeler Tarihi. 1. Ve 2. Cild birarada. Sadeleştiren ve Baskıya Hazırlayan: Metin Muhsin Bozkurt. İstanbul: Çile Yayınları, 1981.
3. İslam Ansiklopedisi. 44.Cild. Ankara: Türkiye Diyanet Vakfı, 2013.
4. Бернацкий А.С. Сто великих тайн Библии. - М.: Вече, 2014.
5. Библия. Книги священного писания Ветхого и Нового Завета.- М.: Российское Библейское Общество, 1995.

6. Гомберг Л. Израиль и Фараон: секреты библейской истории. - Ростов н/Д: Феникс; Краснодар: Неоглори, 2009.
7. Жизнь святаго праведнаго Иосифа Прекраснаго, сына Ветхозаветнаго Патриарха Иакова. По руководству Библии, творений Св. Ефрема Сирина и «Записок на Книгу Бытия» Филарета, Митрополита Московскаго. Составил Леонидъ Денисовъ. Издание второе. М.: Издание Е.И.Коноваловой, 1902.
8. История еврейского народа в контексте мировой истории. События. Имена. Культурные достижения. Справочное пособие. 3-е издание. Авторы-составители: С.Августевич, А.Рыбаков, Л.Внукова. М.: Изд. «Еврейский мир», 2002.
9. Кафра Людмила. Мозаики с израильским Ганди. Главы еще не изданной книги (часть 2) // Сетевой журнал «Заметки по еврейской истории», №9, 31 марта 2002 г.: (25.11.2018)
10. Мибихов М.Я. История еврейского народа: от Вавилонского пленения до первой эпохи танаев. – Спб.: типография И.Флейтмана, 1901.
11. Михаил Носоновский (Бостон). Еще раз о гробнице Иосифа. http://berkovich-zametki.com/Nomer10/MN21.htm (25.11.2018)
12. Немировский А.И. Мифы и легенды Древнего Востока. - Ростов-на-Дону: Феникс, 2000.
13. Такман Барбара. Библия и меч: Англия и Палестина от бронзового века до Бальфура / пер. с англ. А.А.Комаринец. – М.: АСТ, 2015.
14. Bishop Alexander. The Well of Jacob and Tomb of Joseph // The Church of England magazine. London: J. Burns for the Church Pastoral-aid Society; Printed by Joseph Rogerson. Vol. 17 (January to June, 1844), p. 280.
15. Bonar Andrew A., M'Cheyne Robert Murray. Narrative of a mission of inquiry to the Jews from the Church of Scotland in 1839. Philadelphia: Presbyterian Board of Publication, 1845.
16. Browne, J.Ross. Yusef: or, The Journey of the Fungi: A crusade in the East. New-York: Harper & Brothers, 1872.
17. Ginzberg, Louis. The legends of the Jews (Translated from the German Manuscript by Henrietta Szold). Volume II. Bible Times and Characters from Joseph to the Exodus. Philadelphia: The Jewish Publication Society of America, 1910.
18. Ginzberg, Louis. The legends of the Jews. Volume V: Notes to Volumes I and II, From the Creation to the Exodus. Philadelphia: The Jewish Publication Society of America, 1925.
19. Merrill George E. The Hilltops of Palestine / The Journal of Religion, Volume 10, Number 5, November, 1897, pp.333-341.
20. Taylor W.C.İllustration of The Bible from the Monuments of Egypt. London: Charles Tilt, 1838.
21. The Itinerary of Rabbi Benjamin of Tudela. Translated and edited by A.Asher. Vol.I (Text, bibliography, and translation). London & Berlin: A. Asher & Co, Printed by Julius Sittenfeld, 1840.
22. The Jewish Ensyclopedia. In 12 volumes, vol.7, New York and London: Funk and Wagnalls Company, 1904.
23. The Jewish Ensyclopedia. In 12 volumes, vol.11, New York and London: Funk and Wagnalls Company, 1906.
24. Ulmer Rivka. Ecyptian Cultural Icons in Midrash (Studia Judaica, Forschungen zur Wissenschaft des Judentums 52). Berlin-New York: Walter De Gruyter, 2009.

25. Wilson, John. The lands of the Bible: visited and described in an extensive journey undertaken with special reference to the promotion of Biblical research and the advancement of the cause of philanthropy. Vol.II. Edinburgh: William Whyte and Co., 1847.
26. مسعودی، علی بن حسین. اثبات الوصیه للامام علی بن ابی‌طالب. قم: انصاریان، ۱۳۸۴.
27. شیخ صدوق. ابن بابویه، محمد بن علی . علل الشرائع. ترجمه ذهنی تهرانی. جلد اول، قم، انتشارات مؤمنین، ۱۳۸۰ ش.
28. الطبرسی، الشیخ ابی علی الفضل بن الحسن. مجمع البیان فی تفسیر القرآن. الجزء الخامس. بیروت، ۱۴۰۶.
29. قبادیانی مروزی، حمیدالدین ناصر بن خسرو، سفرنامه . به کوشش محمد دبیرسیاقی . تهران، انتشارات زوار، ۱۳۳۵.

***Шахла Абдуллаева***

## ИСТОЧНИКИ О МЕСТОНАХОЖДЕНИИ ГРОБНИЦЫ ПРОРОКА ИОСИФА

***Резюме***

Легенда об Иосифе Прекрасном берет свои истоки из истории о Пророке Иосифе в главах 37-50 «Бе-решит» в Торе и в 12-й суре Священного Корана. В Торе вся его жизнь прослеживается от рождения до его смерти, а в Коране история о Пророке Иосифе в отличие от историй других пророков, сведения о которых разбросаны по всему Священному Корану, передана полностью в одной суре. В данной статье исследуется местонахождение гробницы пророка Иосифа на основе Священных книг, а также научной и религиозной литературы. Изучение источников показало, что местонахождение гробницы пророка Иосифа до сих пор является спорным. Мусульмане верят, что гробница пророка Иосифа находится в 35 км к югу от Иерусалима, в Пещере Патриархов (которую также называют Пещерой Махпела), расположенная в древней части Хеврона. Иудеи и некоторые христианские исследователи утверждают, что могила пророка Иосифа находится в гробнице на окраине города Наблус на Западном берегу Иордана, в 300 метрах к северо-западу от колодца Иакова. Ни в еврейских, ни в христианских, ни в исламских источниках вплоть до V в. нет информации о существовании этой могилы, хотя известно, что гробница на протяжении веков почиталась евреями, самаритянами, христианами и мусульманами. Многие археологи считают, что в гробнице похоронен мусульманин по имени Юсуф Ад-Дувейкат, и захоронение не является очень древним. Хасан аш-Шага, мэр города Наблус заявил, что необходимо провести международное расследование на наличие костей в этой могиле. И если обнаруженные кости принадлежали Пророку Иосифу, то это место будет считаться древним библейским захоронением, и евреи будут иметь законное право посещать эту гробницу. В 2009-2010 гг. сооружение было отремонтировано, был установлен новый купол, и визиты еврейских паломников были возобновлены. В настоящее время по договоренности с Армией обороны Израиля группы еврейских паломников регулярно и в организованном порядке доставляются к гробнице Иосифа.

**Ключевые слова**: *Коран, Ветхий Завет, Новый Завет, Иаков, Иосиф, Хеврон, Сихем, Пещера Патриархов*.

***Shahla Abdullayeva***

## SOURCES ABOUT THE LOCATION OF THE PROPHET JOSEPH`S TOMB

***Summary***

The basis of the Legend about Joseph the Beautiful was taken from the life story of Prophet Joseph, narrated in Torah (Genesis, 37-50) and the 12th surah (chapter) of Holy Qur`an. There is given all Joseph's life in Torah – from birth to his death. And, in Qur'an unlike stories of other Prophets, the details of which are scattered throughout the Holy Qur`an, the history of Prophet Joseph was revealed completely in one surah. This article explores the location of the tomb of the Prophet Joseph based on the Sacred Books, as well as scientific and religious literature. The study shows that the location of the Prophet Joseph`s tomb is still controversial. Muslims believe that the tomb of the Prophet Joseph is located about 35 km south of Jerusalem, the Cave of the Patriarchs (also called the Cave of Machpelah), placed in the ancient city of Hebron. Jews, as well as some Christian scholars claim that the Pr0ophet Joseph`s tomb is located in a grave on the outskirts of the city of Nablus on the West Bank, 300 metres northwest of Jacob`s Well. Neither Jewish, Christian, nor Islamic sources until the 5th century have information about the existence of this grave, although the tomb has been revered by Jews, Samaritans, Christians, and Muslims for centuries. Many archaeologists believe that a Muslim saint named Yusuf Al-Duveykat is buried in this tomb, and the burial is not so ancient. Hassan Al-Shaqa, the mayor of Nablus stated the need to conduct an international inquiry into the presence of bones in the grave. And if the discovered bones belong to the Prophet Joseph, this place will be considered burial place attributed to Biblical personality, and the Jews will have the full legal right to visit this tomb. In 2009-2010 the tomb was refurbished, a new cupola installed, and visits by Jewish pilgrims have resumed. Currently, groups of Jewish worshippers are regularly delivered to the tomb of Joseph by agreement with the Israel Defense Forces.

**Key words**: *The Qur`an, Old Testament, New Testament, Jacob, Joseph, Hebron, Shechem, The Cave of the Patriarchs.*

*Redaksiyaya daxil olma tarixi: 28.11.2018*
*Çapa qəbul olunma tarixi: 21.12.2018*

*Akademik **Möhsün Nağısoylu** tərəfindən çapa tövsiyə olunmuşdur.*